**UOT 323.28 (41.25.40)**

**AKİF MARİFLİ**
*(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası)*

# BEYNƏLXALQ TƏŞKİLATLARIN FÖVQƏLADƏ HALLARLA BAĞLI FƏALİYYƏTİNDƏ TERRORLA MÜBARİZƏ MEXANİZMLƏRİ

***Açar sözlər:*** *fövqəladə hallar, terror, humanitar, fəlakət, beynəlxalq, qlobal, silah*

Təbii fəlakətlər və qəzaların tənzimlənməsində beynəlxalq ictimaiyyətin iştirakı hər il artır. İllər arasında olan fərqlərə baxmaqla yeni sənədlərin hər il artmasını görmək olar. Bu sahədə hökumətlərarası və beynəlxalq razılaşmalar mövcuddur. Birləşmiş Millətlər Təşkilatının oynadığı rol fövqəladə halların aradan qaldırılması sahəsində əməkdaşlığın gücləndirilməsində birbaşa hiss edilir. BMT qeyd edilən istiqamətdə fəaliyyətlərini tənzim edərkən müəyyən beynəlxalq hüquqi bazanı əsas götürür və özünün qurumlarını fəaliyyətə cəlb edir. Eyni zamanda BMT dünya dövlətlərinin qeyd edilən sahədə fəaliyyətlərini əlaqələndirir. Birləşmiş Millətlər Təşkilatı qlobal ekoloji problemlərin həlli istiqamətində iş aparır. Konsensusun və danışıqlar yolu ilə razılaşmaların əldə edilməsi üçün beynəlxalq forum rolunu oynayan BMT iqlimin dəyişməsi, ozon təbəqəsinin nazikləşməsi, zəhərli tullantılar, meşə örtüyünün və bioloji növlərin tükənməsi, hava və suyun çirkləndirilməsi kimi qlobal problemlərin həlli ilə məşğul olur. Bu problemlər həll edilməzsə, bazarların və iqtisadiyyatların uzun müddətli davamlılığını təmin etmək qeyri-mümkün olacaqdır, çünki ekoloji vəziyyətin pisləşməsi iqtisadi artım və insan həyatının qaynaqlandığı təbii "kapitalın" tükənməsinə gətirib çıxarır. BMT humanitar böhranların aradan qaldırılmasına yönələn fəaliyyətini özünün Fövqəladə Yardım Komitəsi vasitəsilə həyata keçirir. Komitənin tərkibinə BMT-nin Uşaq Fondu, BMT-nin İnkişaf Proqramı, Dünya Ərzaq Proqramı və Qaçqınların İşi üzrə BMT-nin Ali Komissarlığı daxildir. Komitədə, həmçinin, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və digər qurumlar təmsil olunur (1).

23-27 may 1994-cü ildə Yaponiyanın Yokohama şəhərində dünyada ilk dəfə olaraq Təbii Fəlakətlərin Azaldılması üzrə Beynəlxalq Konfrans keçirilmişdir (24; 25; 26; 30). Burada təbii fəlakətlərin azaldılması istiqamətində beynəlxalq fəaliyyəti tənzimləyəcək mühüm sənədlərdən biri olan Yokohama strategiyası qəbul edilmişdir. Bu sənəddə fövqəladə halların qarşısının alınması və eləcə də təbii fəlakətlərin azaldılması istiqamətində beynəlxalq əməkdaşlığın əsasları öz əksini tapmışdı. Belə ki, 1994-cü ildə Yokohama strategiyasına əsasən, dövlətlər "humanitar və təbii ehtiyatların, ekosistemlərin və mədəni irsin qorunması, insanların həyatının xilas edilməsi istiqamətində birgə məsuliyyət daşıyırlar. Sənəddə həmçinin göstərilirdi ki, hər bir dövlət təbii fəlakətlərin təsirindən onun xalqına, infrastruktura ziyanın qarşısının alınmasına görə əsas məsuliyyəti daşıyır. Yokohama Fəaliyyət Planına görə ölkələr bəyanatlar, qanunvericilik, siyasi qərar və siyasi öhdəliklərlə fəlakətlər və onların azaldılması planlarını yüksək səviyyədə həyata keçirməlidirlər. Belə ki, bu sənəddə məcburi olmayan tövsiyə müəyyən olunmuşdur. Yokohama Konfransının yekun sənədlərində BMT-nin bu sahədə məqsəd və vəzifələri ifadə edilmişdir və tam beynəlxalq mexanizm yaratmaq üçün necə hərəkət ediləcəyinin konturları cızılmışdır (23).

Təbii fəlakətlərin azaldılmasına dair beynəlxalq konfransın növbəti sənədi Hyoqo deklarasiyasıdır. Bu beynəlxalq hüquqi akt 22 yanvar 2005-ci ildə eyni adlı konfransın yekunu olaraq qəbul edilmişdir (16). Bundan başqa dövlətlərin





2005-2015-ci illər ərzində təbii fəlakətlərin azaldılması ilə bağlı olaraq birgə fəaliyyətlərinin çərçivə sənədi də qəbul edilmişdir. Bu sənəd əsasən dövlətlərarası maarifləndirici və informasiya mübadiləsi məsələlərinə həsr edilmişdir. Hər iki sənəd BMT sistemi daxilində həyata keçiriləcək fəaliyyətləri əhatə edir.

Bu qəbul edilmiş sənədlərdən öncə isə 19 dekabr 1991-ci ildə BMT Baş Assambleyasının 46/182 saylı qətnaməsi qəbul edilmişdi (21). Sənəd "Təxirəsalınmaz Humanitar yardımların tənzimlənməsinin möhkəmləndirilməsi" adlanırdı. Qeyd edilən sənədlərin mahiyyətini nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəlmək olar ki, onlar fövqəladə hallar və təbii fəlakətlər sahəsində beynəlxalq hüquqi bazanın təməllərini təşkil edirlər.

Mütəxəssislər belə hesab edirlər ki, hər hansı bir beynəlxalq konfransın yekun sənədləri beynəlxalq hüquq sahəsində çoxtərəfli saziş və ya müqavilə rolunu oynaya bilərlər (3, s.110). Məhz bu səbəbdən həmin sənədlər fövqəladə hallar və təbii fəlakətlərin azaldılması sahəsində ümumi olaraq qəbul edilmiş prinsipləri əmələ gətirirlər. Onlar həmçinin yeni normaların legitimləşməsinə gətirib çıxarda bilərlər (2, c.205-206).

BMT sistemi daxilində təbii fəlakətlər, fövqəladə hallar və humanitar yardımlarım göstərilməsi istiqamətində fəaliyyət göstərən bir sıra təşkilatlar vardır. Onlardan biri Humanitar Məsələlərin Koordinasiyası İdarəsidir. Bu qurum BMT katibliyinin bir hissəsi olaraq çalışır (22). Vəzifəsi fövqəladə hallar zamanı humanitar məsələlərlə bağlı olaraq beynəlxalq fəaliyyətləri və tədbirləri koordinasiya etməkdir.

BMT sistemi daxilində işləyən növbəti təşkilat Fövqəladə Hallara Reaksiyavermə Mərkəzi Fondudur (10). Fond həmçinin beynəlxalq əməkdaşlığın koordinasiyasını həyata keçirən qurumlardandır.

1951-ci ildən bəri BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, çox zaman digər qurumların da iştirakı ilə, müharibə, aclıq və ya təqiblərdən xilas olan 50 milyondan artıq qaçqına davamlı surətdə yardım göstərmiş və göstərməkdədir. Təşkilat qaçqınların vətənlərinə orada münasib şəraitin olduğu təqdirdə repatriasiyasına və ya sığınacaq tapdıqları ölkələrdə inteqrasiyasına, yaxud üçüncü ölkələrə köçməsinə kömək edərək uzun müddətli və ya "davamlı" həll yolları tapmağa çalışır. Əsasən, qadınlar və uşaqlardan ibarət olan 25 milyondan artıq qaçqın, sığınacaq axtaran şəxs və məcburi köçkün BMT tərəfindən ərzaq, yaşayış yeri, tibbi yardım ilə təmin edilir, təhsil və repatriasiya üçün yardım alır.

Birləşmiş Millətlər Təşkilatı Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi 29 iyul 1957-ci ildə yarandığı gündən indiyə kimi dünyanın nüvə müfəttişi kimi fəaliyyət göstərir (5, s.4). Agentliyin ekspertləri nüvə materiallarının yalnız sülh məqsədləri üçün istifadə olunmasını müşahidə edir və onun hərbi məqsədlər üçün istifadə olunmasına qarşı çıxaraq daim nəzarət altında saxlayır. Bu günə qədər Agentlik 163 dövlət ilə nüvə təhlükəsizliyinə dair qarant sazişi imzalamışdır (17; 18; 19).

NATO da o cümlədən fövqəladə hallar, təbii fəlakətlərlə bağlı olaraq müəyyən işlər görür. 1998-ci ilin iyun ayında NATO-nun qərargahında Rusiya tərəfindən verilmiş təklifə əsaslanan Fəlakətlərə Cavabvermə üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi (FCAAƏM) yaradıldı. 24 saat fəaliyyət göstərən Mərkəz məlumatın yayımlanması üçün mərkəz rolunu oynayır və AvroAtlantik məkanda NATO və Tərəfdaş ölkələr arasında fəlakətlərlə bağlı cavabları koordinasiya edir. Bu həmçinin, kimyəvi, bioloji və ya radioloji agentləri istifadə etməklə terror aktlarının nəticələrinin idarə olunması da daxil olmaqla, təkrarlanan təbii və insanlar tərəfindən törədilmiş fəlakət vəziyyətlərinə dair cavabverməni nəzərdə tutan əsas fövqəladə mülki hazırlıq təlimləri təşkil edir. Mərkəz beynəlxalq fəlakətlərə cavabverilmə tədbirlərində və onların nəticələrinin idarə olunmasında aparıcı rol oynayan Humanitar Məsələlərin Əlaqələndirilməsi üzrə Birləşmiş Millətlərin Bürosu və Kimyəvi Silahların qadağan olunması üzrə Təşkilat kimi, beynəlxalq agentliklər və digər təşkilatlarla sıx iş birliyindədir. Viza rejimi, sərhəddən keçmə tədbirləri, tranzit sazişləri, gömrük şəffaflığı və heyətin statusu kimi məsələlərə müraciətlə bağlı ikitərəfli və ya çoxtərəfli razılaşmaları inkişaf etdirməklə ölkələr

üçün stimul yaradılır. Belə tədbirlər həqiqi fəlakət yerinə yardımların və komandanın çatdırılmasındakı bürokratik əngəlləri aradan qaldırır. Fəlakət baş verdikdə, ölkələrin bu barədə qısa şəkildə məlumat əldə etmələri üçün milli elementlərin qarışığından təşkil edilmiş Fəlakətlərə Cavabverma üzrə AvroAtlantika Birliyi üçün də tədbirlər müəyyən edilib (9).

NATO-da mülki fövqəladə planlaşdırma kimi istinad olunan fəlakətlərə hazırlıq və onlara cavab sahəsində əməkdaşlıq Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində fəaliyyətin ən əsas qeyri-hərbi hissəsini təşkil edir. Fəlakətlərə qarşı səmərəli mübarizə nəqliyyat vasitələri, tibbi ehtiyatlar, kommunikasiya, fəlakətlərə cavab imkanları və başqa mülki ehtiyatların əlaqələndirilməsini tələb edir. Bütün ölkələrin öz ərazilərindəki fövqəladə hallarla mübarizədə milli səviyyədə mövcud planların həyata keçirilməsinə cavabdehlik daşımasına baxmayaraq, bəzi potensial fəlakətlərin miqyasca böyük olması və sərhəd tanımaması beynəlxalq səviyyədə yardım, əməkdaşlıq və planlaşdırmanın təşkil olunmasını zəruri edir. Mülki fövqəladə planlaşdırma sahəsində NATO-ya üzv və tərəfdaş dövlətlər arasındakı əməkdaşlığa yerli, regional və milli hökumətlərin müxtəlif səviyyələrdə mülki və hərbi personalını bir araya gətirən seminar və təlim kursları daxildir.

NATO üzv dövlətləri gözlənilməz və çox istiqamətli, eləcə də geniş miqyaslı və çeşidli hərbi və qeyri-hərbi təhdidlərin hədəfi olaraq qalmaqdadır. Nüvə, bioloji və kimyəvi silahların yayılması və onların daşınma vasitələri hələ də ciddi problem olaraq qalır. NATO etiraf edir ki, həyata keçirilən bütün əks tədbirlərə baxmayaraq, qeyd olunan silahların yayılmasının və nəticə etibarilə müttəfiq dövlətlərin əhalisini, ərazisini və hərbi gücünü təhlükə altına alınmasının qarşısının alınması mümkünsüzdür. NATO-nun həm adi, həm də nüvə silahlarının yayılmaması rejimlərinə verdiyi dəstək onun həyata keçirdiyi təhlükəsizlik siyasətinin ayrılmaz hissəsidir. Üzv dövlətlər kütləvi qırğın silahlarının yayılması və onların daşınmasına qarşı iki istiqamətli - siyasi və müdafiə xarakterli yanaşma qəbul etmişdir. Lakin bununla belə, kütləvi qırğın silahlarının yayılmaması rejiminin beynəlxalq səviyyədə gücləndirilməsində müəyyən nailiyyətlərin əldə edilməsinə rəğmən başlıca təhlükələr hələ də qalmaqdadır. Terror təhlükəsinin artması bu işdə beynəlxalq səviyyədə birgə əks tədbirlərin görülməsinin vacibliyini daha da artırır. NATO-nun nüvə silahına müraciət etmək ehtimalı reallıqdan uzaq görünür və təhlükəsizlik strategiyası çərçivəsində nüvə silahının rolu xeyli azalmışdır. Nüvə silahına malik olan üzv ölkələrdən ABŞ, Fransa və Birləşmiş Krallıq da həmçinin öz nüvə qüvvələrini böyük miqdarda ixtisar edib. Tədqiqatlar nəticəsində məlum olur ki, nüvə müharibəsi başlayacağı təqdirdə yer üzündə iki milyard insan aclıqdan əziyyət çəkəcək. Çünki günəşdə qara tüstü yanacaq və o stratosferdə illərlə qalacaq. Bu da öz növbəsində günəş şüalarının yer səthinə çatmasına mane olacaq. Nəticədə qlobal fəlakət baş verəcək (14; 15). Qeyd etmək lazımdır ki, hazırda dünyada 9 ölkə üzrə 17 000-dən çox nüvə silahı mövcuddur. Bu ölkələr Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Fransa, Çin, İsrail, Hindistan, Pakistan və Şimali Koreyadır. Lakin nüvə silahının 90%-dən çoxunu ABŞ və Rusiya arsenalları təşkil edir (20).

Mülki Fövqəladə Planlaşdırma Komitəsi (Civil Emergency Planning Committee – CEPC) mülki əhalinin müdafiəsi və NATO-nun məqsədlərinə dəstək üçün insan resurslarından istifadə funksiyasını daşıyan NATO-nun ən yüksək məsləhət orqanıdır. O, terrora hazırlıq və nəticələrinin idarə olunması, humanitar və fövqəladə hallara cavab, kritik infrastrukturun qorunması sahəsində NATO-nu əsas mülki təcrübə və imkanları ilə təmin edir. Həmçinin, hərbi əməliyyatlar üçün mülki dəstəyin təmin edilməsi və fövqəladə hallar zamanı mülki əhalinin qorunmasını təmin etmək üçün milli qurumlara dəstək göstərir. Amerika Birləşmiş Ştatlarına qarşı törədilən məlum 11 sentyabr terror hücumundan sonra NATO-nun mülki müdafiə sahəsində səylərinin böyük hissəsi öz əhalisini kimyəvi, bioloji və nüvə zəhərləyici maddələrinin təsirindən qorumaq istəyində olan üzv və tərəfdaş dövlətlərə yardım məsələlərinə istiqamətləndi (12).





Sülh Naminə Tərəfdaşlıq Proqramı və Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində Mülki fövqəladə planlaşdırmanın fəaliyyəti məlumat mübadiləsi də daxil olmaqla yerli, regional və milli hökumətlərin müxtəlif səviyyəli mülki və hərbi nümayəndələrinin, eləcə də qeyri-hökumət təşkilatlarından olan nümayəndələrin cəlb olunması ilə təşkil olunan seminarlar, işçi görüşləri, təlim kursları formatında fəaliyyət göstərir. Onun ümumi fəaliyyəti mülki əhalinin fəlakət və terror hücumları nəticəsində yaranan fövqəladə hallara hazırlıq və mühafizəsinin gücləndirilməsindən ibarətdir. Bu fəaliyyət sahəsi əsasən fövqəladə halların nəticələrinin aradan qaldırılmasına xidmət edir. Təbii fəlakətlər, fövqəladə halların aradan qaldırılması və ekoloji tarazlığın qorunması istiqamətində MDB daxilində də bir sıra fəaliyyətlər həyata keçirilməkdədir. 1999-2006-cı illər arasında MDB dövlətlərinin iştirakı ilə mövzu ilə bağlı olaraq üç böyük beynəlxalq konfrans təşkil edilmişdir. 8 fevral 1992-ci ildə MDB daxilində Beynəlxalq Ekoloji Şura qurulmuşdur. Şuranın indiyə qədər 14 sessiyası keçirilmişdir və burada ekoloji problemlərlə bağlı olaraq 200-ə yaxın məsələ müzakirə edilmişdir.

22 yanvar 1993-cü ildə Fövqəladə hallar və təbii fəlakətlər Beynəlxalq Şurası təsis edilmişdir. İndiyə qədər Beynəlxalq Şura tərəfindən 22 iclas keçirilmişdir və 400-ə yaxın məsələ müzakirəyə çıxarılmışdır. 28 sentyabr 2001-ci ildə MDB çərçivəsində təsis edilən növbəti qurumlardan biri də Sənayedə Təhlükəsizlik Üzrə Beynəlxalq Şura olmuşdur (11).

Avropa İttifaqının müvafiq istiqamətdə fəaliyyəti də diqqəti cəlb edir. Avropa İttifaqının Mülki Müdafiə Mexanizminin tərkib hissəsi kimi fəlakətlərə hazırlıq sahəsində 7/24 iş cədvəli ilə fəaliyyət göstərən və özündə monitorinq, məlumatlandırma və əlaqələndirmə fəaliyyətini əks etdirən fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsi mərkəzi fəaliyyət göstərir. Mərkəzin monitorinq fəaliyyətinə Qlobal Fəlakətlərin Xəbərdar Edilməsi və Əlaqələndirməsi Sistemi, daşqınların xəbərdar edilməsi, yanğın və hava proqnozlarının verilməsi daxildir. Əlaqələndirmə fəaliyyətinə fəlakətlər zamanı üzv dövlətlərlə müntəzəm videokonfransların təşkil olunması, fəlakət baş vermiş ölkəyə iştirakçı dövlətlərdən yardımın təklif olunması, Aİ-nın mülki müdafiə əlaqələndirmə və qiymətləndirmə qruplarının göndərilməsi daxildir. Bu günə qədər mülki müdafiə mexanizmi ABŞ-da neft dağılmasının, Haitidə, Çilidə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması, Moldovada, Rumıniyada, Albaniyada, Pakistanda, Polşada daşqınların, Fransada, Portuqaliyada meşə yanğınlarının qarşısının alınması əməliyyatlarına qoşulmuşdur. Mülki müdafiə mexanizminin imkanlarına əsasən aşağıdakılar daxildir:

- axtarış-xilasetmə komandaları, havadan meşə yanğınlarının söndürülməsi,
- cərrahiyyə imkanları olan müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqələri,
- sahə hospitalları,
- tibbi təxliyə,
- fövqəladə hallar zamanı müvəqqəti sığınacaqlar,
- kimyəvi, bioloji, radioloji və nüvə təhlükəsinin aşkar olunması,
- kimyəvi, bioloji, radioloji və nüvə qəzaları zamanı axtarış-xilasetmə komandaları,
- Texniki yardım üzrə Dəstək Qrupları (6; 13).

Şərq proqramı çərçivəsində Elektron Regional Risk Atlası yaradılmışdır ki, bu da öz növbəsində kritik infrastrukturun, o cümlədən təhlükələrin, baş verə biləcək fəlakət riskinin xəritələrini görüntüləmək, fəlakətlərin potensial təsirini qiymətləndirməyə kömək etmək üçün nəzərdə tutulmuşdur (4, s.51-52). Bununla yanaşı risklərin qiymətləndirilməsi metodologiyası hazırlanmışdır. Metodologiyanın əsas məqsədi tərəfdaş ölkələrdə risklərin sistemli müəyyən edilməsini, təhlilini, qiymətləndirilməsini və azaldılmasını nəzərdə tutan risklərin idarəolunması prosesinə yardım etmək və fövqəladə hallara cavab tədbirlərindən qarşısını alma və hazırlıq tədbirlərinə keçidi təmin etməkdir. Risklərin idarəolunması fəaliyyətində ümumi yanaşmanın və anlaşmanın təmin olunması məqsədilə risklərin qiymətləndirilməsi sahəsində terminologiya hazırlanmışdır. Şərq proqramının xəbərdarlığın artırılması fəaliyyəti çərçivəsində fövqəladə hallarda davranış qaydaları

üzrə ailələr üçün təlimat kitabı, məktəblilər üçün posterlər, maarifləndirici video roliklər hazırlanmışdır. Şərq proqramı çərçivəsində mülki müdafiə, təbii risklərin modelləşdirilməsi, coğrafi-informasiya sistemləri sahələrində təlimlər, stolüstü təlimlər, xəbərdarlığın artırılması, risklərin qiymətləndirilməsi, fəlakət riskinin azaldılması, sənaye qəzaları, **SEVESO*** direktivləri, mülki müdafiə qanunvericiliyinin təhlili mövzularında seminarlar keçirilmiş və erkən xəbərdarlıq sistemləri və ictimaiyyətin məlumatlandırılması sahələrində təcrübə mübadiləsi məqsədilə elmi səfərlər təşkil olunmuşdur. Şərq poqramı çərçivəsində fəaliyyətin tərəfdaşlar arasında qarşılıqlı müzakirələr və məsləhətləşmələr əsasında həyata keçirilməsi məqsədilə tərəfdaş ölkələrdə Milli Məsləhət Qrupları yaradılmışdır (8; 29).

Bundan başqa fövqəladə hallar və təbii fəlakətlərlə əlaqədar digər təşkilatlar da fəaliyyət göstərirlər. Asiya qitəsi dünyanın təbii fəlakətlərdən və onların ağır nəticələrindən ən çox zərər çəkən bölgəsidir. Statistika göstərir ki, 1990-2009-cu illər ərzində dünyada fəlakət qurbanlarının 90 faizi bu qitənin payına düşür. Bu, bir tərəfdən qitənin coğrafi mövqeyi, eləcə də əhalinin sıxlığı ilə bağlıdırsa, digər tərəfdən də inkişaf səviyyəsinin aşağı olması faktoru da burada az təsirə malik deyil. Eyni zamanda fəlakətlərin çoxluğu və nəticələrinin ağırlığı da öz növbəsində regionda inkişafı əngəlləyən ciddi amilə çevrilmişdir. Qitə ölkələrinin fövqəladə hallar sahəsində əməkdaşlıq məqsədi ilə birləşdikləri təşəbbüslərdən biri Asiya Fəlakətlərin Azaldılması Mərkəzidir (Asian Disaster Reduction Centre – ADRC). Mərkəz üzv ölkələrin fəlakətlərə qarşı dözümlülüyünü artırmaq, təhlükəsiz bir cəmiyyət yaratmaq və davamlı inkişafa nail olmaq məqsədilə 1998-ci ilin iyul ayında Yaponiyanın Kobe şəhərində təsis olunmuşdur. Təşkilatın yaradılmasında məqsəd Asiya ölkələrində fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, fəlakətlərin azaldılması üçün çoxtərəfli əməkdaşlığa dəstək verməkdir. ADRC-nin fəaliyyəti həmçinin aidiyyəti sahə üzrə kadr mübadiləsi də daxil olmaqla bir çox proqramlar vasitəsilə ölkələr arasında şəbəkələri yaratmaqdan ibarətdir (27). Təşkilat fəaliyyətini üzv ölkələrdə fövqəladə hallara və təbii fəlakətlərə qarşı dözümlülüyün gücləndirilməsi, əhalinin fövqəladə hallara hazırlanması, cəmiyyətin davamlı inkişafına nail olmaq istiqamətlərində qurur. Hazırda təşkilatın 30 üzvü vardır (28). 5 ölkə isə təşkilatda müşahidəçi statusuna malikdir. ADRC-nin əsas fəaliyyət istiqamətləri informasiya təminatı, məlumatların paylanması, insan resurslarının inkişafı və əhali arasında müvafiq vərdiş və bacarıqların inkişaf etdirilməsi, fəlakət mədəniyyətinin formalaşdırılmasıdır. Bunun üçün beynəlxalq görüşlər, seminar və təlimlər təşkil edilir, çap məhsulları vasitəsi ilə məlumatlandırma həyata keçirilir, eləcə də digər müxtəlif məlumatlandırma vasitələri inkişaf etdirilir. Mərkəz BMT-nin müvafiq ixtisaslaşmış qurumları və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində fəaliyyət göstərir (7).

Beləliklə, görmək olur ki, fövqəladə halların və təbii fəlakətlərin qarşısının alınması və fəsadların aradan qaldırılması ilə bağlı geniş beynəlxalq təşkilatlar şəbəkəsi fəaliyyət göstərir. Onların bir qismi birbaşa olaraq fövqəladə halların və təbii fəlakətlərin qarşısının alınması və fəsadların aradan qaldırılması məşğul olur, digərlərində isə bu istiqamət ümumi fəaliyyətin bir qismini təşkil edir. Bununla belə mövcud reallıqlar beynəlxalq ixtisaslaşmış təşkilatlar şəbəkəsinin genişləndirilməsi və gücləndirilməsini tələb edir.

***SEVESO** fəlakəti İtaliyanın Lombardiya bölgəsinin Milan şəhərinin şimalında təxminən 20 kilometr (12 mil) məsafədə kiçik Kimya zavodunda, 10 iyul, 1976-də 12:37 radələrində meydana gələn sənaye qəzası idi. Hazırda AB sənaye təhlükəsizlik qaydaları Seveso II Direktivi kimi tanınır.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**


1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyati, 2005., 631 s. s.367.

2. Лукашук И. И. Нормы международного права в международной нормативной системе / РАН ИГП. М.: Спарк, 1997. 321 с., с.205-206.







3. Межправительственные конференции: Международные правовые вопросы. М., Международные отношения, 1980. 125 с., с. 110.

4. Gregory G.Noll, Michael S. Hildebrand. Special Operations for Terrorism and Hazmat Crimes.US – Red Hat Publishing 2002. 352 p. pp.51-52.

5. Quarterly Journal of The International Atomic Energy Agency // IAEA / BULLETIN, VOL. 37, NO 1, 1995. VIENNA, AUSTRIA. p.76., pp.4.

6. Avropa İttifaqı və Azərbaycan - Şərq Tərəfdaşlığı və Avropa İttifaqının Təbii və texnogen fəlakətlərin qarşısının alınması, hazırlıq və qabaqlayıcı tədbirlərin görülməsi adlı Şərq Proqramı, Fövqəladə Hallar Nazirliyinin qəzetinin rəsmi internet saytı / http://www.fhn.gov.az/newspaper/index.php?type=view_news&news_id=3571

7. Fövqəladə halların idarə olunmasında beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi xüsusi əhəmiyyət kəsb edir. / http://fhn.gov.az/newspaper/?type=view_news&news_id=604

8. Şərq Tərəfdaşlığı Ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab Tədbirləri üzrə Şərq Proqramı – PPRD East 2 EuropeAid/ 135314/ C/SER/MULT, 2 iyun 2015./ http:// pprdeast2.eu /wp-content/uploads/2015/04/PPRD-NAG-report-AZE.pdf

9. Tərəfdaşlıq vasitəsilə təhlükəsizlik / http://www.nato.int/docu/sec-partnership/sec-partner-aze.pdf

10. Оказание гуманитарной помощи. / http://www.un.org/ru/sections/what-we-do/deliver-humanitarian-aid/

11. Сотрудничество в сфере предупреждения чрезвычайных ситуаций природного и техногенного характера, ликвидации их последствий. / http://www.cis.minsk.by/page.php?id=8628

12. Civil Emergency Planning Committee (CEPC), / http://www.nato.int/cps/en/natohq/topics_50093.htm

13. Electronic Regional Risk Atlas / http://pprdeast2.eu/en/regionalnyy-yelektronnyy-atlas-risk/

14. Helfand I. An Assessment of the Extent of Projected Global Famine Resulting from Limited, Regional Nuclear War. Paper presented to the Royal Society of Medicine, London, UK, October 2007 / http://www.ippnw.org/pdf/famine-helfand.pdf

15. Helfand I., Nuclear Famine: Two billion people at risk? Global Impacts of Limited Nuclear War on Agriculture, Food Supplies, and Human Nutrition.pp. 23, p.4. / http://www.psr.org/assets/pdfs/two-billion-at-risk.pdf

16. Hyogo Declaration. World Conference on Disaster Reduction 18-22 January 2005, Kobe, Hyogo, Japan / http://www.unisdr.org/2005/wcdr/intergover/official-doc/L-docs/Hyogo-declaration-english.pdf

17. IAEA and DPRK: Chronology of Key Events / https://www.iaea.org/newscenter/focus/dprk/chronology-of-key-events

18. International Conference on Knowledge Management in Nuclear Facilities. 18-21 June 2007, Vienna, Austria / Organized by the International Atomic Energy Agency (IAEA), (official site of IAEA) / http://www-pub.iaea.org/mtcd/meetings/Announcements.asp?ConfID=153

19. Introductory Statement to the Board of Governors // by IAEA Director General Dr. Mohamed ElBaradei, Vienna, Austria, 24 October 2014 / https://www.iaea.org/ newscenter/statements/introductory-statement-board-governors-25#dprk

20. NUCLEAR WEAPONS / http://www.wagingpeace.org/issues/nuclearweapons/?gclid=CKTolZqA180CFeYK0wodvjcCxQ

21. Strengthening of the coordination of humanitarian emergency assistance of the United Nations General Assembly. A/RES/46/182,78th plenary meeting, 19 December 1991. / http://www.un.org/documents/ga/res/46/a46r182.htm

22. Who We Are? / http://www.unocha.org/about-us/who-we-are

23. World Conference on Natural Disaster Reduction // United Nations. A/CONF.172/9

27 September 1994 / http://www.preventionweb.net/files/10996_N9437604.pdf

24. Yokohama Strategy and Plan of Action for a Safer World: Guidelines to Natural Disaster Prevention, Preparedness and Mitigation., Disaster Risk Reduction Program, Florida International University (DRR/FIU), 1994. / http://dpanther.fiu.edu/sobek/contains/?t=%22World+Conference+on+Natural+Disaster+Reduction%22&f=PU

25. http://dpanther.fiu.edu/sobek/FI13042666/00001

26. http://unpan1.un.org/intradoc/groups/public/documents/apcity/unpan029311.pdf

27. http://www.adrc.asia/aboutus/index.php

28. http://www.adrc.asia/disaster/ (ADRC-nin rəsmi saytı)

29. www.fhn.gov.az

30. www.un.org/unisdr/

## Summary

**Akif Maarifli**

**Counter-terrorism mechanisms implemented by the international organizations in the area of emergency situations**

***Keywords:*** *emergency situations, terror, humanitarian, disaster, international, global, weapons*

The article discusses the mechanisms of the international organizations' policies in the field of emergency situations. The author states that international organizations, such as the UN and NATO, represent the liason between the practices of states in this area. Along with that, an emphasis is made on the role of the UN in solving global problems related to emergencies occuring all around the world.

In particular, the article takes into account the relevant international practices. Therefore, comparable and contrasting practices employed by different states in the fight against any forms and manifestations of terrorism were analyzed. The relevance of the article is determined by the provision of information on all the relevant decisions and resolutions adopted by the UN in this area. Along with that, mention is made of nuclear weapons possessed by 9 countries, NATO's support in proliferation of conventional and nuclear weapons and the organization's security policy, as well as the intensifification of NATO's civil defense efforts after September 11 terrorist attack. With this purpose, the poignant assumptions of Western scholars were mentioned and the essence of the matter was analyzed. In general, an explanation of the differences in the studies was suggested.

In its deliberations over the question of whether terrorism is one of the most dangerous threats to the world, the article refers to the arguments of the local and foreign experts.





## Резюме

**Акиф Марифли**

**Механизмы борьбы с терроризмом международных организаций в сфере чрезвычайных ситуаций**

***Ключевые слова:*** *чрезвычайные ситуации, террор, гуманитарные, стихийные бедствия, международные, глобальные, оружие*

Статья посвящена механизмам политики международных организаций в сфере чрезвычайных ситуаций. В статье указано на то, что такие международные организации как ООН и НАТО являются связывающим звеном деятельности мировых государств в этой сфере, а также отмечено, что ООН занимается решением глобальных проблем, связанных с чрезвычайными ситуациями во всем мире.

В том числе, в статье учтена практика мировых стран. Анализируются все схожие и отличающиеся опыты применяемые ими в борьбе с любым видом терроризма. Здесь дается информация о всех решениях и резолюциях принятых ООН в упомянутой сфере, что повышает актуальность данной статьи. В тоже время упоминается о ядерном оружии, существующем в 9 странах мира, о поддержке представляемой НАТО в распространение как обычного так и ядерного оружия и проводимая организацией политика безопасности, а также то что после террористической атаки 11 сентября усилия НАТО в сфере гражданской обороны еще больше увеличились. Здесь упоминается интересные утверждения западных ученных и проводится анализ сути вопроса. В основном, было дано разъяснение о различии между исследованиями.

Рассматривая в статье вопрос о том, является ли терроризм одной из наиболее угрожающих миру опасностей, присутствует обращение к утверждениям отечественных и зарубежных экспертов.